**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI BİZNES UNİVERSİTETİ**

# BAKI BİZNES UNİVERSİTETİNİN 5 İLLİK STRATEJİ İNKİŞAF PLANI

**Planın əhatə etdiyi dövr: 2019–2023-cü illər**

**Planın müəllifi: Bakı Biznes Universiteti**

AZƏRBAYCAN RESPUBLİKASI BAKI BİZNES UNİVERSİTETİ

**Elmi Şuranın 27.12.2018-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir**

**(protokol №4)**

**Təsdiq edirəm:_______________**

**Rektor: i.e.d., prof. İ.M.Abbasov**

**"_____"_______________2018-ci il**

**BAKI – 2018**

## PLANIN STRUKTURU

### Strateji məqsədlər və fəaliyyət istiqamətləri

1. Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması.
2. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı.
3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi tədbirləri.
4. Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi.
5. Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri).
6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət.
7. Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq.

### Planın dövrlər və fəaliyyət istiqamətləri üzrə icrası

# STRATEGİYA

**Əsas məqsəd (Missiya):** Təhsilin və elmi tədqiqatların keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırmaqla, əmək bazarı üçün yüksək kompetensiyalı kadrlar yetişdirmək.

**Gələcəyə baxış (Vizion):** Tədrisin və elmi tədqiqat fəaliyyətinin səviyyəsini artırmaqla, əmək bazarının tələblərinə və müasir standartlarına cavab verməklə, ölkəmizin universitetləri arasında rəqabət qabiliyyətinin artırılması.

**Strateji İnkişaf Planının fəaliyyət istiqamətləri üzrə icrasında məsul şəxslər və struktur bölmələr**

| № | Fəaliyyət istiqamətləri və strateji məqsədlər | Məsul şəxslər |
|---|---|---|
| 1. | Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması. | Rektor, Tədris işləri üzrə prorektor, Keyfiyyət təminatı şöbəsi, Kafedra müdirləri |
| 2. | Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı. | Tədris işləri üzrə prorektor, Kafedra müdirləri |
| 3. | Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi tədbirləri. | Rektor, Təsərrüfat Şöbəsi |
| 4. | Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi. | Elmi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor |
| 5. | Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri). | Təlim tərbiyə işləri üzrə prorektor, Karyera mərkəzi |
| 6. | Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət. | Rektor, Beynəlxalq əlaqələr üzrə prorektor |
| 7. | Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq. | Rektor, Elmi-metodik şura |

**Universitetin fəaliyyətinin bütün sahələri ilə əlaqədar mövcud vəziyyətin təhlili.**

**Güclü tərəflər**

- Universitetin müvafiq fəaliyyət istiqamətləri üzrə strateji inkişaf planının mövcudluğu.
- Avropanın aparıcı universitetləri ilə beynəlxalq əlaqələrin mövcudluğu.
- Müəllim heyəti "Erasmus Mundus" proqramı çərçivəsində Avropanın bir sıra universitetlərinə müxtəlif müddətlərə təkmilləşmə kurslarına göndərilmiş, müəllimlərin beynəlxalq təcrübə mübailəsi proqramları əsasında onların peşəkarlığı və ixtisasının artırılması təmin olunmuşdur.
- Kadr siyasətində müəllim heyətinin gəncləşdirilməsi siyasəti davam etdirilir.
- Universitet müasir və innovativ maddi-texniki bazaya malikdir.
- Bütün auditoriyalar proyektorlar və ağıllı lövhələrlə təchiz olunmuş, həmçinin kafedralar tədris prosesində istifadə üçün müasir noutbuklarla təmin olunmuşdur.
- Hər bir ixtisas kafedrasının yanında əyani vəsaitlərlə təchiz olunmuş xüsusi laboratoriyalar yaradılmışdır.
- Universitet təhsilin elektron idarə edilməsinə dair "Elektron Universitet" proqram təminatını yaratmışdır.
- Elmi-tədqiqat sahəsində beynəlxalq standartlara uyğunlaşma.
- Universitetin "Audit" jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qeydiyyatında olan nüfuzlu jurnalların siyahısına daxil edilmişdir.
- Universitetin kitabxanasının zəngin kitab fonduna malik olması.

- Universitetin kitabxanasında bütün fənlər üzrə tərtib edilmiş mühazirə materialları yenilənmiş və elektronlaşdırılmışdır.
- Son 10 ildə Universiteti bitirən tələbələrin 80%-dən çoxu ixtisası üzrə müvafiq işlə təmin olunmuşdur.
- Bakı Biznes Universiteti Avropa Komissiyası tərəfindən maliyyələşdirilən, "Azərbaycan Universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi" adlı Erasmus Plus proqramı üzrə qrant layihəsini qazanmışdır.

**Zəif tərəflər**

- Tədrisin səviyyəsinin Avropanın aparıcı universitetlərinin səviyyəsinə hələ çatdırılmaması.
- Universitetə tələbə kontingentinin əsasən aşağı balla qəbul olması.
- Elmi tədqiqat işlərinin tətbiq yönümlüyünün yetərli olmaması.

**İmkanlar**

- Ölkəmizin təhsil sistemində şəffaflığın mövcudluğu.
- Ali məktəblərə qəbul prosesinin şəffaflığı.
- Təhsilin bütün sahələrində dövlət dəstəyinin mövcudluğu.
- İxtisasartırma kursları ilə əlaqələrin mövcudluğu.
- Tələbələrin beynəlxalq mübadilə proqramlarında iştirak imkanları.
- Universitet tərəfindən "Erasmus +" layihəsi və "Mövlanə" proqramı üzrə tələbələrimizi Avropanın və Türkiyənin qabaqcıl universitetlərinə təqaüdlə təhsil almaq imkanı.
- Doktorantların PhD proqramı üzrə Avropada təhsil almaq imkanı.
- Müəllimlərin beynəlxalq mübadilə proqramlarında iştirak imkanları.

**Risklər**

- Gənclərin tədrisdən çox elektron vasitələrə marağının artması.

- Cəmiyyətdə ozəl təhsil müəssisələrinə olan biganə münasibətin olması.
- Təhsil müəssisələri arasında rəqabətin güclənməsi.
- İkinci ixtisas qrupu üzrə abituriyentlərin orta keçid ballarının aşağı

olması.

**Bakı Biznes Universitetinin 2019-2023-cü illəri əhatə edən strateji planının istiqamətləri və əsas hədəfləri**

**Strateji istiqamətlər və hədəflər:**

1. Təhsildə keyfiyyət təminatı siyasətinin hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması.
2. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi, pedqaoji kadrların tərkibinin cavanlaşdırılması və akademik imkanlardan geniş istifadə edilməsi.
3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi tədbirləri.
4. Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi.
5. Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri).
6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət.

   Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq.

   Bu istiqamətlər üzrə əsas hədəflər aşağıdakılardır:

**1. Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması.**

1. Təhsildə keyfiyyət təminatının strategiyasının hazırlanması üçün qaydalar, tövsiyələr hazırlamaq.

2. Müasir texnologiyalardan istifadə və beynəlxalq normalara əsaslanan təlim metodlarının tətbiqi ilə tələbələrdə təlim nəticələrinin aşılanması və praktiki bacarıqların formalşdırılması.
3. Tədris proqramlarının məzmununun təkmilləşdirilməsi və sadələşdirilməsi, onların beynəlxalq standartlara uyğunlaşdırılması.
4. Tədrisdə müasir texnoloji qurğulardan, avadanlıqlardan maksimum istifadə tədbirlərini hazırlamaq və icra etmək.
5. Tədrisin təşkilinin və idarə edilməsinin standartlaşdırılması və elektronlaşdırılması.
6. Tədrisin təşkili və idarə edilməsinin səmərəliliyinin yüksəldilməsində motivləşdirməni tətbiq etmək.
7. Bakalavriatların, magistrantların, doktorantların xarici ölkələrdə, xüsusən Avropa ölkələrində təhsilinin davam etdirilməsi imkanlarından maksimum faydalanmaq.
8. Universitetdaxili və Respublika səviyyəsində bilik olimpiadaları, müsabiqələr, intellektual yarışmaların təşkili.
9. Tələbə-gənclərin elmi-pedaqoji fəaliyyətə cəlb edilmə mexanizmini hazırlamaq.
10. Tələbələrin aralıq qiymətləndirilməsində biliyin, vərdişlərin və bacarığın qiymətləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi.
11. Xüsusi istedada malik olan tələbə gənclərin universitetin elmi-ictimai işlərinə cəlb edilməsi.
12. Tədris-təcrübə müəssisələri və istehsal sahələrində tədrisin təşkili.
13. Metodik-təminat bazasının təkmilləşdirilməsi və müvafiq standartlara uyğunlaşdırılması.
14. Elektron tədris sisteminə keçid.
15. Tələbə-gənclərin (təhsil alanların) təhsil və tədris proqramlarının hazırlanmasında iştirakını təmin etmək,

**2. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı.**

1. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və tədqiqat sahəsində peşəkarlığın artırılması üçün mütəmadi təlim kursları təşkil etmək.
2. Kafedraların spesifik xüsusiyyətləri nəzərə alınmaqla, görkəmli mütəxəssislərin seminarlarını təşkil etmək, görüşlər və konfranslar keçirmək.
3. Professor-müəllim heyətinin mütəmadi attestasiyasını təşkil etmək.
4. Professor-müəllim heyətinin əmək haqqının artırılmasında motivləşdirmə sistemi işləyib hazırlamaq və əmək haqqının diferensiallaşdırılmasını təkmilləşdirmək.
5. Professor-müəllim heyətinin beynəlxalq təcrübə mübadiləsində iştirakını təmin etmək.
6. Pedaqoji kadrların tərkibinin cavanlaşdırılması istiqamətində universitetin, ölkə daxili və xarici ölkələrin akademik imkanlarından istifadə etmək.
7. Gənc kadrların seçilməsi və hazırlanmasına dair müvafiq iş aparmaq.

**3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi tədbir-ləri.**

1. Dərslik, dərs vəsaiti, metodik vəsaitlərin elektronlaşdırılması və vahid elektron tədris metodik bazanın genişləndirilməsi.
2. Elektron tədris jurnallarının təşkili.
3. Tədrisdə yeni nəsil elektron vasitələrdən istifadə edilməsi.
4. Universitetin maliyyə resurslarının strateji idarə edilməsi.
5. Strateji inkişaf planının icrası üçün 1.933.000 manat investisiya yönəldilməsi nəzərdə tutulr.

| № | Fəaliyyət istiqamətləri və strateji məqsədlər | Sahələr üzrə yönəldiləcək investisiyaların həcmi |
|---|---|---|
| 1. | Təhsildə keyfiyyət təminatı strategiyasının hazırlanması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması. | 215.000 |
| 2. | Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və pedaqoji kadr hazırlığı. | 145.000 |
| 3. | Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi tədbirləri. | 480.000 |
| 4. | Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi. | 335.000 |
| 5. | Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri). | 300.000 |
| 6. | Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət. | 320.000 |
| 7. | Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq. | 48.000 |
| | **Cəmi** | **1.933.000** |

**4. Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və bu sahədə beynəlxalq standartların tətbiqi.**

1. Elmi-tədqiqat işlərinin müasirliyinin təmin olunması və tədbiqi elmi işlərin stimullaşdırılması.
2. Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi istiqamətində motivləşdirmə sisteminin qurulması.
3. Elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqinə dair tədbirlərin hazırlanması.

4. “Audit” jurnalının beynəlxalq arenada tanıdılması tədbirlərini genişləndirmək.
5. “Audit” jurnalının Thomson Reuters agentliyinin nəşr sisteminə daxil olunmasına dair tədbirlər.
6. Professor-müəllim heyətinin nüfuzlu beynəlxalq jurnllarda məqalələrinin nəşrinin motivləşdirilməsi.

**5. Tələbə kontingentinin formalaşdırılması, əmək bazarı və məzunlarla iş, ictimaiyyətlə əlaqələr və Universitetin tanıtım layihəsinin icrası (təbliğat-təşviqat işləri).**

1. Tələbə kontingentinin formalaşması istiqamətində tədbirlər planının hazırlanması, əyani təbliğat-təşviqat vəsaitlərindən səmərəli istifadə olunması.
2. Universitetin tanıtım layihəsinin hazırlanması və icrasına dair tədbirlər.
3. Universitetin açıq qapı günlərinin keçirilməsi.
4. İctimaiyyətlə online əlaqə sisteminin gücləndirilməsi və sosial şəbəkələrdən istifadə etməklə universitetin tanıdılması istiqamətində fəallığın artırılması və bu istiqamətdə kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilməsi.
5. Universitetin hazırladığı ixtisaslara dair əmək bazarının təkliflərini öyrənmək məqsədilə marketinq tədqiqatlarının aparılması.
6. Əmək bazarının və işəgötürənlərin təkliflərinin təlim nəticələri və peşə kompetensiyalarının hazırlanmasında istifadə olunması.
7. Müvafiq dövlət orqanları və biznes təsərrüfat subyektləri üçün praktiki bacarıqlara malik kadrlar yetişdirmək.
8. Məzunlarla iş sisteminin təkmilləşdirilməsi.
9. Təşkilatlar və biznes qurumları ilə mütəmadi əlaqələr və görüşlərin keçirilməsi.
10. Əmək yarmarkasının təşkilinin təkmilləşdirilməsi.

**6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsində innovativ fəaliyyət.**

1. İkili diplom və ya ortaq diplom layihələrinin icrasına dair tədbirləri həyata keçirmək.
2. Universitetin beynəlxalq aləmdə tanıdılması layihəsi çərçivəsində tərəfdaş universitetlərin sayının artırılması.
3. İkitərəfli əməkdaşlıq, tələbə və magistrantlar, müəllim və doktorantların mübadiləsinin aktivliyinin yüksəldilməsi.
4. Beynəlxalq layihələrdə iştirak etmək, qrant layihələrin hazırlanması və həyata keçirilməsini təmin etmək.

6. **Özünütəhlil, qiymətləndirmə və attestasiya-akkreditasiyaya hazırlıq.**

1. Attestasiya komissiyasının təşkili
2. Attestasiyanın aparılması üçün özünütəhlil hesabatı üzrə komissiyanın müvafiq iş bölgüsünün aparılması.
3. Müvafiq sahələr üzrə təhlil materiallarının toplanması və arayışın hazırlanması
4. Özünütəhlil nəticəsində yazılmış yekun arayışın müzakirəsi.